Ədalət.- 2020.- 26 sentyabr. S. 12.



Qəşəm İsabəyli

## Gorba-gor

Deyirlər:-Niyə təzə paltar almırsan,
Qorxursan kasıb düşəsən?!
Deyirəm:- Təzə paltar nəyimə lazımdı?!
Yengibar bibioğlunun sözü olmasın,
Kürdəmir yemişi kimi qoonumuşam -
Dəyib ötmüşəm,
Bıçaq vur - cırrr... eləyim.
Bilmirəm qabaqda nə gözləyir məni,
Bilirəm ey... amma haçandı, onu bilmirəm!
Cındırı çıxana qədər köhnələrimi geyəcəm,
Məndən sonra niyə aparıb versinlər məscidə!
Dəli-qudurmuşun biri də
Götürüb təpişdirə əyninə,
O yan-bu yanı yerinə oturmayanda,
Üstəlik dalımca nəmər də göndərə:
-Gorba-gor!

## Şuşanın dolması

*Şuşalı Səid Hacıyevin əziz xatirəsinə.*

Hər Xırdalan qəbiristanlığının
Yanından keçəndə,
Səid müəllim yadıma düşür, -
Təbəssüm qonur üzümə.
Səid Hacıyevi deyirəm,
Mədəniyyət Nazirliyinin
Musiqi Metod-Mərkəzinin rəisiydi.
Gördüyü işin
Pozulmayan sahmanı olardı,
Kargüzarlıq sənətini özü yaratmışdı sanki! -
On il əvvəlin məktubunu istəsəydin,
On dəqiqəyə tapıb qoyardı ovcuna.
Erməni-rus birləşmələri
Şuşanı zəbt eləyəndən sonra,
Ayrılıq acısını xatirələrlə soyudardı, -
Bir dəfə də dedi:
-Bizim Şuçada elə dolma bükərdilər,
Yağı, istiotu "bəs deyincə"dən də o yana.
Hünərli oğulsan,
Ye, görüm, necə doyursan!
Bir mollamız vardı,
Qəbiristanlığa girib,
"Fatehə" verən kimi üz tutardı qəbir əhlinə:
-And olsun Allaha,
Əcəliniz Haqdan gəlməyib, ay şuşalılar,
Şuşanın dolması öldürüb sizi!
Hər Xırdalan qəbiristanlığının
Yanından keçəndə,
Səid Hacıyev yadıma düşür, -
Təbəssüm qonur dodaqlarıma.
Sonra da ah çəkirəm:
-Qəbrin nurla dolsun, Səid müəllim!

## Pay-püşk...

Orden, medal, fəxri ad... -
Dəyərdən düşdü -
Pay-püşkdü...

## İnsan

Bir səhər ayılıb görək ki,
İnsanlar sevinc içindədi, -
Çarəsi tapılıb koronavirusun!
Dərindən nəfəs alaq...
Sonra da başlayaq
Bir-birimizin ətini yeməyə.

## Yaş ötdükcə...

Yaş ötdükcə, dəyərdən düşür insan,
İllah da ki, əlin aşağı ola.
Qardaşım oğlu Elnurun
Ana babası İkram müəllim
80-ni keçəndə dərdini açdı mənə:
-A kişi, elə bil heç kimə lazım deyilsən,
Elə bil artıqsan daha!
Nə adamlara maraqlısan,
Nə də, nəüzibillah, Allaha!

Yaş ötdücə, dəyərdən düşür insan,
İllah da ki, əlin aşağı ola.
O günü Kəlbəcərli dostum
Usta Zöhrab gəlmişdi bizə:
-Bərdəyə gedirəm, müəllim,
Nə ürəyindən keçir, alım gətirim sizə?
-Zöhrab, mənə bir yaşlı xoruz alarsan.
-Neçə yaşı olsa yaxşıdı, müəllim?!
Oğul nəvəm Qəşəm-Şəm
Mənalı-mənalı məni süzüb,
Lappadan dedi:
-72!
Çəp-çəp üzünə baxdım:
-Adə, köpəyoğlu,
Xoruzun yaşını soruşur ey, Zöhrab əmin,
Səni özümə vəkil eləmişəm, nədi?!

## Belə-belə gedəcəm...

70-i keçəndə 80-ni yedi gözlərim,
80-ni bastalayanda, yəqin 90-ı yeyəcək,
90-nın dalından dəyəndə 100-ü...
100-ü bürüb-bükəndə 110-u...
110-un aşının suyunu verəndə 120-ni...
Belə-belə gedəcəm, -
Qurdnan qiyamətəcən!

## Şeyxin Nobeli

Deyirlər, Nobelə təqdim eləyiblər Şeyxi, -
Şeyx Allahşükür Paşazadəni,
Nobel Slüh Mükafatına.
Bu xəbər od qoyub
Başda katalikos olmaqla
Bütün ermənilərin zatına!

Kişinin adresinə qara-qura deyiblər,
"Şeyx hara - Nobel hara?!" deyiblər.

Biz özümüz də yaxşı bilirik,
Şeyx bizdən də yaxşı bilir - arif adamdı,
Onun sevinci yan düşə bilməz gözümüzdən,-
Ermənilərin dişi batmaz Şeyxə,
Şeyx göz-qulaq olsun özümüzdən!